# MEŞƏ EKOSİSTEMİNDƏ BİOMÜXTƏLİFLİK VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

**Elman İsgəndər[1]*, Gülnar Məsimzadə[1], Bahar Məmmədova[2]**

[1]*AR ETN Mikrobiologiya İnstitutu, Bakı*
[2]*AR Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu, Bakı*
**acae55@hotmail.com*

Məlumdur ki, ətraf mühit amilləri fərqli xüsusiyyət və fəaliyyət spesifikliyinə malikdir. Bu amillər müstəqil deyil, bir-birindən asılı olaraq həmin ərazidə yaşayan canlılara təsir göstərir. Müəyyən canlılar üçün bəzi amillər vacib olub, digər canlılar üçün vacib deyildir. Bitkilər aləminin müxtəlifliyi növlərin yaşadığı qruplaşmaların yaşına uyğun olaraq zənginləşir, belə ki, təkamül tarixi biomüxtəlifliyə təsir edən səbəblərdən biri hesab olunur. Məsələn, Bəsitçay çinar meşə bitkiçilik tipi tam formalaşdığı üçün burada növlər say baxımından yetərincə təmsil olunur. Bu baxımdan həmin bitkiçilik tipi yüksək bioloji müxtəlifliyə malik olan və klimaks mərhələsinə qədər inkişaf etmiş meşə ekosisteminin bir nümunəsidir.

Bildiyimiz kimi, flora zənginliyi baxımından soyuq bölgələr isti bölgələrlə müqayisədə daha kasaddır. Bəzi bitki növləri dördüncü buzlaşma və digər geomorfoloji dəyişikliklər zamanı qısa zaman içərisində dəyişilmiş, iqlim şəraitinə uyğunlaşa bilməmiş və bir sıra növlər məhv olmuşdur. Məlumdur ki, tropik bölgələr uzun zaman içərisində mənfi təsirli ekoloji amillərin təsirinə az məruz qaldıqları üçün zəngin növmüxtəlifliyinə malikdir. Burada ekoloji şəraitlə əlaqədar olaraq növlər geniş ərazilərə yayılma imkanı qazanmışlar.

Bütün yuxarıda qeyd edilən fikirlər içərisində növ zənginliyinin iqlim amillərinin təsiri nəticəsində dəyişikliklərlə uğraması diqqət çəkir.

Sabit iqlimi olan bir mühit dar ekoloji nişləri saxlayan ixtisaslaşmış növlər üçün əlverişlidir. Yəni, rəqabət olmayan bir ərazidə daha çox növ yaşaya bilər. Sabit iqlimi olan meşə ekosistemlərində bitki məhsuldarlığı sabit olub, qeyri-sabit iqlimi olan ərazilərə nisbətən daha çox növün birlikdə yaşamasına imkan verir.

Meşə fitosenozlarında biomüxtəlifliyin formalaşması məkan heterojenliyi fərziyyəsi baxımından izah oluna bilər. Yəni, mürəkkəb quruluşa malik yaşayış yerləri daha çox növü özündə birləşdirir. Formalaşmış meşə ekosistemlərində daha çox bitki növləri müəyyən zaman içərisində yerlərini dəyişdirmə xüsusiyyətinə malikdirlər.

Bir çox ekoloqlar növlərlin çoxsaylı qruplaşmalarının formalaşmasında Darvinin irəli sürdüyü həlledici qüvvəyə malik olan rəqabət kimi biotik əlaqələrin mühüm rolunu qeyd edirlər.

Rəqabət qarşılıqlı əlaqədə olan iki fərd və ya növün müəyyən yaşayış şəraitində ehtiyaclarının kifayət qədər olmadığı biotik əlaqə kimi nəzərdə tutulur. Hər hansı bir ekoloji amil üçün bir-birinə rəqib olan növlər arasında rəqabət ortaya çıxmış olur. Rəqabət nəticəsində meşə ekosistemində növlərin ekoloji nişlərə görə paylanması baş verir və ixtisaslaşmış növlər dar nişlərlə xarakterizə olunur ki, bu da zəngin növmüxtəlifliyinin yaranmasına şərait yaradır. Mülayim iqlimi olan bölgələrin meşələrində əsasən növlərarası rəqabət müşahidə olunur, çünki burada növlərin mənsub olduğu populyasiyaların yayılma arealı kiçikdir. Bundan əlavə, rəqabət mexanizmləri müəyyən bir bitki qruplaşmalarının, o cümlədən meşə ekosistemlərinin quruluşunu müəyyənləşdirir, həm də təbii seçmənin əsasını təşkil edir. Aparılan müşahidələr göstərmişdir

ki, Zəngilan rayonu ərazisində bir hektar meşə sahəsində 25-45 ağac növü olur. Meşə ekosistemində növmüxtəlifliyinin zənginliyi fauna və mikroorqanizmlərin zənginliyinin də yaranmasına şərait yaratmış olur. Bitki qruplarının formalaşmasında növdaxili rəqabət xüsusi əhəmiyyət kəsb edir.

Bildiyimiz kimi, meşə ekosisteminin strukturunda hər bir bitki və ya digər orqanizmlərin müəyyən bir rolu vardır ki, bu ekoloji nişdir. Rəqabət kimi biotik əlaqələr ekoloji nişin genişlənməsinə kömək edir, yəni, olduğu ekosistemdə geniş funksiyaları ilə xarakterizə olunur. Növdaxili rəqabətin artması növlərarası rəqabətin zəifləməsinə və dominant növlərin bəzi ehtiyacı olduğu ehtiyatların artmasına səbəb olur. Meşə ekosistemlərində olan bu tip rəqabət mexanizmi növ populyasiyalarında fenotip dəyişkənliklərinin və ya senopopulyasiyaların artmasına səbəb olur. Növlərarası rəqabət fitosenozların meydana gəlməsinə də təsir göstərir. Ümumiyyətlə, ekoloji amillərin heç birinin Yer kürəsinin hər hansı landşaftında növmüxtəlifliyinə təsiri tamlıqda izah edilə bilmir.

Bəzi tədqiqatçılar belə qənaətə gəlmişlər ki, iqlim amilləri və biomüxtəliflik arasında korrelyasiya hələ də tədqiqat obyektidir.

Müasir dövrdə biomüxtəliflik nəzəri baxımdan çox praktik istiqamət sahəsinə keçmişdir və biomüxtəlifliyin qorunması dünyada tədqiqatçıların qarşısında duran ən aktual məsələlərdəndir.